BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2* *Humanitar elmlər seriyası* *2010*

# OSMANLI DÖVLƏTİNDƏ ERMƏNİLƏRİN DURUMU: TARİXİ GERÇƏKLİKLƏR VƏ YALANLAR*

**İSMAYIL MUSA**
***Bakı Dövlət Universiteti***
***afternoon1986@mail.com***

I Napoleon Bonapartın «Anadoludakı katolik ermənilərindən istifadə etməyin mümkün olub-olmaması» sorğusuna İstanbuldakı fransız səfiri Sebastianinin cavabından: «Ermənilər həyatlarından o qədər məmnundurlar ki, buna imkan yoxdur» (1, 14 ).

*Məqalədə Osmanlı dövlətində yaşayan ermənilərin maddi durumu və mədəni inkişaf səviyyəsi ilə bağlı məsələlər araşdırılır. Başlıca diqqət ermənilərin iqtisadi və mədəni həyatı ilə əlaqədar gerçəkliklərin açıqlanmasına yönəldilir. Işdə habelə tarixi həqiqətlərin ermənilər tərəfindən qərəzli və planlı şəkildə saxtalaşdırılması məsələsi tədqiq edilir.*

Çoxsaylı uydurma və yalanlarının əksinə olaraq ermənilər Osmanlı dövlətində yaxşı maddi rifaha və xoş güzərana, iqtisadi və mədəni tərəqqiyə də nail olmuşdular. Onlar bir sıra aparıcı amilləri əsas götürərək xeyli maddi sərvət toplamış və iqtisadi mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdilər. Həmin amillər sırasında diqqəti aşağıdakılar çəkir:

- iqtisadi gücə yiyələnməyin mühüm vasitələrindən olan ticarətə üstünlük verilməsi və bu məqsədlə də (digər niyyətlər də olmuşdur) Osmanlının əlverişli bölgələrində məskunlaşılması;
- aparıcı iqtisadi-maliyyə qurumlarında (zərbxana, xəzinə, banklar və s.) yüksək məqamların ələ keçirilməsi.

Başbakanlıq Osmanlı arxivindəki sənədlər (2) və bir çox elmi araşdırmaların nəticələri də bu fikrə şərik çıxır ki, XVIII-XIX əsrlərdə Osmanlı iqtisadiyyatında qeyri-müsəlmanlar olduqca üstün mövqelərə malik olmuşlar. Ermənilərin tarixçilərindən D.Oskanyan «Sultan və təbəəsi» kitabında (London, 1957) bunları etiraf etməyi bacarmışdı: türklər sənayenin bütün sahələrini onlara buraxmışdılar; bu səbəblə Türkiyədəki bankirlər, tacirlər erməni idi; ermənilər türklərə rahatca uyğunlaşmış və təhlükəsizliklərini qazanaraq ən nüfuzlu reaya (təbəə) olmuşdular (3,13).

Xülasəsi ilə arxiv sənədləri arasında rastlaşdığımız (müəllifi göstərilməyən) "Sultan Abdülhamit İdaresinde Ermeniler ve Türkler" adlı bir kitabda ifadəsini tapan və həqiqət yükünə malik olan bu baxışın önəmi də danılmazdır: ermənilər Osmanlı

* Məqalənin əvvəli "Bakı Universitetinin Xəbərləri" jurnalının 2009-cu il humanitar elmlər seriyasının 3-cü sayında səh.81-85-də çap edilmişdir.

idarəsində məzhəb və dillərini qoruyaraq ticarət baxımından məmləkətin birinci dərəcəli toplumu olaraq qalırlar (4).

"Mavi kitab"ın, A.Süslünün araşdırmaları (3, 14-15) vasitəsi ilə tanış olduğumuz, aşağıdakı etirafları diqqəti çəkir: ermənilər məharətləri və xasiyyətləri sayəsində Türkiyənin sənaye, ticarət, maliyyə və intellektual fəaliyyətlərinin böyük bir qismini əllərinə keçirmişdilər; türklərin əkinçilik və maldarlıq sahələrində çalışanlar ilə rəqabət qayğısı (qorxusu) olmadığından imperatorluğun digər hissələrinin hamısı tək ermənilərin əlində idi.

Osmanlı ermənilərin maddi rifahını və iqtisadi tərəqqisini təsdiqləyən elmi nəticələr sırasında Y.Çarkın (5, 50-51; 80) gəldiyi qənaət, verdiyi tövsiyələr seçilir. Ermənilərin zənginliyinin sultan III Mustafa zamanından başlandığını qeyd edən bu rahib-tarixçi XVIII əsrin 50-ci illərində ifrat varlı olan rum və erməni təbəələrinin dəbdəbəli və səfalı həyat yaşadıqlarını vurğulamışdır.

Türkiyə burjuaziyasının tərkibində əsas yeri yunanlarla yanaşı ermənilər tuturdu. D.C.Blaisdell «Osmanlı imperatorluğunda Avropa maliyyə nəzarəti» kitabında (İstanbul, 1940) yazırdı ki, Osmanlı dövlətindəki kapitalın hamısı müsəlman olmayan osmanlıların əlində idi (6, 440). «Erməni soyqırımı» uydurmalarına və təbliğatına arxa duranların sırasında birincilərdən olan Fransanın bir maliyyəçisi sərmayə qoyuluşu baxımından Osmanlı dövlətinin fransız müstəmləkələrinə nisbətən daha etibarlı yer olduğunu söyləmişdi (6, 440).

III Səlim zamanında Dadyanlar, II Mahmud dönəmində isə Balyan ailələri və digərləri iqtisadiyyat və ticarət sahələrində üstünlük qazanmışdılar. Sultan II Əbdülhəmidin xatirələrinə əsasən qələmə alınan və Başbakanlıq Osmanlı arxivində saxlanılan bir sənəddə (7) əksini tapan fikirlər və çoxsaylı faktlar məmləkətin iqtisadi-ticarət həyatında ermənilərin tutduqları mövqeləri aydınlaşdırmağa imkan verir. Araşdırıçı B.Gürfıratın «II Əbdülhəmidin ermənilər haqqında düşüncələri» başlıqlı yazı ilə elmi dövriyyəyə (8, 32-33) çıxardığı həmin sənəddə sadalanan faktlar sırasında sultan sarayının hesablarına və Zərbxanaya hələ Əbdülməcidin dövründən ermənilərin (Poqos bəy) baxması və s. vurğulanırdı.

Osmanlı dövlətinin iqtisadiyyat-statistika materiallarından göründüyü kimi, XIX əsrin ortalarında Tokatyan və Kanakcıyan qardaşları İstanbul bazarına və dövlətin dəmirə, manufakturalar üçün xammal ehtiyaclarının ödənilməsinə nəzarəti ələ alaraq Mançesterlə ticarət əlaqələri qurmuşdular; Mkrtıç Əfəndi Qara dəniz limanlarının ticarətini ələ keçirmişdi (6, 440). Krikor Zöhrab 1913-cü ildə Parisdə Marsel Lirt adı və soyadı altında nəşr etdirdiyi kitabda yazırdı: Anadoluda 166 idxalatçıdan 141-i, 150 ixracatçıdan 127-si, 37 bankirdən 32-si, 9800 dükan sahibi və sənətkardan 6800-ü erməni idi; 803 erməni məktəbində 2088 müəllim çalışır, 88000 tələbə oxuyurdu (9, 182).

Öz həmmillətindən olan xeyli adamın - Osmanlıdakı zəngin sərvət sahiblərinin (təxminən 15-ə yaxın) adlarını çəkən Y.Çarkın «Türk Devleti Hizmetinde Ermeniler, 1453-1953» kitabında (İstanbul, 1953) yazılırdı ki, dövlətdən də yardım görən bəzi ermənilər bir sərraflar cəmiyyəti qurmuşdular və bu qurum vasitəsilə valilərə borc pul verərək onları təsirləri altına alırdılar (5, 47).

Osmanlı imperatorluğunda ermənilərin maarif və mədəniyyəti xeyli inkişaf etmişdi. Burada Osmanlı ermənilərinin maarif və mədəniyyət sahələrində əldə etdikləri yetərli irəliləyişin səbəblərini göstərmək lazım gəlir. **Əvvələn,** dövlətin idarə-

çiliyində rəhbər tutulan osmançılıq, yəni dini-milli fərqlərə önəm vermədən bütün təbəələrin naminə yürüdülən siyasət ermənilərin maariflənməsinə və milli mədəniyyətlərini yaşatmalarına da əlverişli şərait yaratmışdı. **İkincisi,** dövlət siyasətinin erməniləri maddi-iqtisadi cəhətdən xeyli gücləndirməsi onların maarif və mədəniyyət sahələrindəki tərəqqilərini təmin edən başlıca amillərdən (dayaqlardan) biri olmuşdu. Yüksək maddi rifah ermənilərin Osmanlıda və Avropa dövlətlərində, xüsusilə də Fransada təhsil almaları işində mühüm stimul rolunu oynamışdı.

Türklər tərəfindən həm də «mənəvi soyqırımı»na uğradıldıqlarını iddia edən ermənilər Osmanlı təbəələri sırasında mədəniyyət və maarifin inkişafı cəhətdən də ən irəliyə çıxanlar idilər. Ermənilərin müvafiq durumunu yetərincə səciyyələndirən keçmiş Baş nazir Səit Paşa 1880-ci il avqustun 31-də dövlətin yüksək qurumlarından birinə göndərdiyi materialda çox ciddi məsələ haqqında düşüncələrini açıqlayaraq yazmışdı:«Təhsildə müsəlmanlar yerində saymış, azlıqlar (oxu: ermənilər. - İ.M.) irəliyə keçmiş, sərvətə və rifaha qovuşmuşlar» (10).

Parisdə çıxan «Ulum» adlı qəzetin 1870-ci ilə aid saylarından birindəki «Ermənilərdə elm və maarif» başlıqlı yazıdakı faktlar da (11, 44) maraq doğurur. Tanınmış təhsil işçilərindən sayılan Əli Suavinin yazdığı bu məqalədə Osmanlı erməni ibtidai və orta məktəblərində tədrisin səviyyəsinin Fransa, İngiltərə, Almaniyadakından yüksək olması, pulsuz təhsil sisteminin tətbiqi və s. bəhs edilirdi. Həmin dövrə aid məlumatlardan İstanbuldakı 46 erməni məktəbində 5772 şagirdin (1272 qız və 4500 oğlan) oxuduğu aydın olur (11, 44).

Əli Suavinin İstanbulun ən məşhur litseylərindən sayılan Qalatasaray Sultaniyyə məktəbinin müdiri olaraq yazdığı raport(12, 38-41) da çox önəmlidir. Məktəbin 1877-ci ilin əvvəlinə aid durumunu açıqlayan bu sənəddən bəlli olur ki, orada təhsil alan 539 şagirddən yalnız 162-si müsəlman olmuş, 377 qeyri-müsəlmanın isə 94-nü ermənilər təşkil etmişlər (6, 446). Ən maraqlı və vacib olanı isə budur ki, 16 müsəlman şagird tam təhsil haqqı ödədiyi halda, 94 erməninin hamısı pulsuz oxuyurdu, 122 rumdan isə yalnız 1-i pul verirdi. Məktəbin nizamnaməsinə görə maddi cəhətdən imkansız şagirdlərdən yalnız Osmanlı təbəələrinin təqaüd almaq hüququ vardı. Ancaq həmin hüquqdan - indi türkləri erməniləri qırmaqda günahlandıran dövlətlərin nümayəndələri - 4 rus, 16 fransız, 8 italyan, 2 ingilis, 2 yunan da yararlanmışdı (6, 446).

Osmanlıda ermənilərin əzilməsi və «soyqırımı»na məruz qalmalarına dair iddia və təbliğatın əsassızlığını isbatlamağın ən inandırıcı, təsirli vasitələrindən biri də, bizcə, elə ermənilərin öz sənədləri və araşdırmaçılarının dili ilə danışmaqdır. Belə ki, hüquq doktoru G.Baxşıyan «1901-1902-ci illərdə İstanbul Erməni Patriarxlığının rəsmi statistikası»na əsasən Osmanlı dövlətinin müxtəlif yerləri üzrə erməni məktəbləri, şagirdləri və müəllimlərinin sayını göstərmişdir (3, 47-49). Bu rəsmi statistikaya görə həmin dövrdə 803 erməni məktəbində 59513 şagird (21713-ü qız) oxumuş və 2088 müəllim işləmişdir. Bunu da mütləq nəzərə almaq lazımdır ki, katolik və protestant ermənilərin məktəblərinin sayı buraya daxil deyildir. Digər araşdırmaçılardan A.Xaçaturyan, onların «Qərbi Ermənistan» adlandırdıqları Türkiyənin şərq ərazilərində 1914-cü ildə 23000, tarixçi G.Mesrop isə 2000 erməni məktəbinin fəaliyyət göstərməsini qələmə almışlar (3, 47-49).

Çoxsaylı arxiv sənədləri(13) Osmanlı dövlətinin ermənilərin nəinki ölkə daxilində, habelə xaricdə təhsil almalarına əlverişli şərait yaratmasına dair də xeyli material verir. Xariciyyə naziri Əli paşa ilə Parisdəki böyükelçi Cəmil paşa və oradakı

Osmanlı erməni kollecinin müdiri Murad bəy arasındakı 1864-cü il 12 fevral (879/70 saylı) və 24 iyul tarixli yazışmalardan (14) göründüyü kimi dövlət:

- Parisdə Osmanlı imperatorluğu erməni məktəbinin açılmasını təmin etmişdi ;
- həmin kollecin müdiriyyətinin müraciəti ilə əlaqədar olaraq Osmanlıdakı ermənilər arasından 32 nəfərin seçilərək xaricdə təhsil alması və sonra isə qayıdıb orduda, mülki vəzifələrdə çalışmalarına icazə vermişdi.

Xariciyyə Nəzarətindən Tibb məktəbinin müdirliyinə (1857-ci il 11 sentyabr və Hakkari valiliyinə (1857-ci il 2 dekabr) göndərilən təlimatlardan (25) birincisində müvafiq təhsil almaq üçün edilən müraciətlərə mövcud qaydalara əsasən baxılması tapşırılmış, ikincisində isə Vandakı erməni uşaqlarına lazım ola kitabların Yeddikilsə monastrındakı nəşriyyat evində çapına icazə verilmişdi.

Osmanlı dövlətinin ermənilərin maariflənməsinə qayğısını aşağıdakılardan da aydın şəkildə görmək olur: **Birincisi,** erməni qadınların təhsil almaları məqsədilə 1879-cu il aprelin 18-də "Erməni millətpərvər qadınlar cəmiyyəti" (16) və s. Yaradılmışdı. **İkincisi**, «dövlət içində dövlət» şəraitini təmin edən «Erməni Milləti Nizamnaməsi»ni də Fransada təhsil alan ermənilərin 1851-ci il oktyabrın 21-də yaratdıqları «Maarif Dərnəyi»ndə yetişənlər hazırlamışdılar (17, 31). **Üçüncüsü,** dövlət yerlərdə ermənilərlə müsəlmanlar arasında təhsil məsələləri ilə bağlı yaranan bəzi problemlərin həllinə çevik və tərəfsiz münasibət bildirmişdi. Xariciyyə Nəzarətindən Harput valiliyinə göndərilən 1857-ci il 7 noyabr tarixli təlimat (29) belə münasibəti açıqlayan çoxsaylı sənədlərdəndir.

Erməni ideoloqları və təbliğatçılarının «ümid və azadlığın müqəddəs yeri» kimi qiymətləndirdikləri Rusiyada isə durum Osmanlıdakıdan olduqca fərqli idi. Erməni tarixçisi M.Varandyan «Erməni hərəkatı tarixi» kitabında yazırdı: «Erməni mədəniyyəti, dili, tarixi, ədəbiyyatı baxımından Türkiyə ermənisi rus ermənisinə nisbətən çox qüvvətli və azaddır» (19, 50). «Katolikos Makariosinin son günləri» adlı yazı da (20) («Armenia» qəzeti, Marsel, 12.VII.1891, №88) dövlət əleyhinə təbliğat mərkəzlərinə çevrilən erməni məktəblərinin fəaliyyətinə sultan hökumətinin göstərdiyi dözümün hədsizliyini təsdiqləyir.

G.Baxşıyan belə bir faktı qeyd edir ki, 1885-ci ilin fevralında Qafqazda 600 erməni məktəbi bağlanmışdı (3, 49). «Yeni nəsli keşişlərin zərərli təsirlərindən qurtarmaq üçün tək çarə» kimi 1897-ci ildə 320 ibtidai məktəb qapadıldı, yerdə qalan 31-nin bir qismi də tezliklə «müəllimlərinin rus diplomuna malik olmamaları»na və «təhsil idarələri üçün lazım olan pulu vermədiklərinə» görə bağlandı(19;370).

Marseldə çıxan «Armenia» qəzetinin 1891-ci il 4 iyul tarixli sayında çap olunan və barəsində Osmanlının Xariciyyə naziri Səit Paşanın sədrəzəm Kamil Paşaya 1891-ci il 24 avqust tarixli (№918) məktubu vasitəsilə məlumat verilən belə etirazlardan birində deyilirdi: tək-tük rahiblərin nizam-intizama riayət etməmələri səbəbi ilə erməni məktəbləri qapadılmış, hətta rahiblər monastırlarda həbs edilmişdilər (21). Avropalı araşdırmaçılardan prof. Vamberyinin «Budapeşti İzemle»dəki (1895-ci il) məqaləsində (22, VII) Rusiya ermənilərinin durumunu təhlil edərkən gəldiyi nəticələr də Osmanlını minnətdarlıqla xatırlamağa səsləyir.

Qafqazın Baş Hərbi rəisi Qalitsının II Nikolaya 1898-ci ildə ünvanladığı gizli raportun I bölümünün «Erməni ibtidai məktəbləri» başlıqlı 3-cü bəndi də Rusiya ermənilərinin maariflənməsi yolunda ciddi maneələr yaradırdı (19, 369-370). Müqayisəli təhlilin nəticələrinin və onları təsdiqləyən faktların dəyərləndirilməsini isə

Türkiyə tarixçisi A.Süslüdən artıq dürüst ifadə etmək çətindir: «Türkün tolerant və ədalət anlayışına, erməni nankorluğuna və Rusiyanın ikiüzlü siyasətinə gözəl bir örnək» (3, 50).

Osmanlı tarixinin, demək olar ki, bütün dönəmləri, xüsusilə XIX yüzillik - XX əsrin əvvəlini ehtiva edən dövrü erməni mədəniyyətinin inkişafı baxımından diqqətçəkicidir. Son yüzilliklərdə Osmanlı dövlətində yetişən çoxlu erməni memarın, yazarın, bəstəkarın və b. fəaliyyətini (23, 127-131; 24,16-18) qısa şəkildə xatırladıqda bunları görürük:

- Qaramanlı Balyan ailəsinin üzvləri 200 il ərzində saray memarları olaraq çalışmış, Dolmabağça sarayı, Bayazit qülləsi, Nüsrətiyyə camisi və s. məşhur tikililəri ərsəyə gətirmişlər;
- çoxlu yazar erməni ədəbiyyatını inkişaf etdirmişdi, Terzibaşyan isə M.Füzuli haqqında 2 cildlik əsər yazmışdı;
- M.Minakyan 1861-ci ildə Şərq teatrını, G.Akop (Vartovyan) isə 1867-ci ildə Gədikpaşa Osmanlı teatrını yaratmışdı və s.

Tarixdəki ilk mətbəələrini hələ 1567-ci ildə İstanbulda toqatlı Abgar tərəfindən quran (25, 54) (bunu L.Nalbandyan da yazmışdır) ermənilər Osmanlı dövlətində öz dillərində və türkcə çoxlu kitab, habelə qəzet çap etdirmişlər. N.Banoğlu tərəfindən müxtəlif sənədlər əsasında yazılan «Ermənінin Ermənіyə Zülmü» kitabından (11, 44) ermənilərin ilk qəzetlərini 1839-cu ildə İstanbulda nəşr etdirdikləri bəlli olur.

Tarixçi N.Sevinçin digər bir tədqiqatçının (Ç.Yetkin) araşdırmalarına əsasən verdiyi məlumata görə, 1876-cı ildə İstanbulda çıxan 47 qəzetdən vur-tut 7-si türklərə, 9-u isə «əzabkeş erməni»lərə məxsus olmuşdur (6, 445). Yeri gəlmişkən, adını irəlidə çəkdiyimiz kitabda 1864-cü ildə İstanbulda türklərin 8, ermənilərin isə 16 qəzetinin nəşr olunması, sonuncuların habelə İzmirdə 3, Vanda 1, Qüdsdə və digər. yerlərdə də qəzetlər buraxdırmaları göstərilir (11, 44). Osmanlı Xariciyyə Nəzarətinin fəaliyyətinə dair arxiv sənədlərində (Hakkari valiliyinə göndərilən 1857-ci il 2 dekabr tarixli təlimat) Yeddikilsə monastırının mətbəəyə malik olması, sonralar patriarx və katolikos seçilən M.Hirimyanın 1857-ci ildə Vandakı Varak monastırında mətbəə quraraq ermənicə «Van qartalı» qəzetini çıxarması və s. faktlara da rast gəlinir (17, 31).Osmanlı dövlətində çıxardıqları qəzetlərin sayını günü-gündən artıran ermənilər həm də, onların səhifələrində türklər əleyhinə sərbəst təbliğat aparırdılar.

## ƏDƏBİYYAT


1. Ermeni İddiaları Ve Tarihi Gerçekler, Ankara: 1998, 293 s.
2. Türkiyə Cumhuriyyəti (T.C.) bakanlık Osmanlı Arşivi (BOA), Dosya: Yıldız Sadaret Hususi, Dosya no: 20, Karton no: 1311, iç no: 1355/1853, 283/31 və s.
3. A .Süslü, Ermənilər ve 1915 Tehcir Olayı, Ankara: 1990, 244 s.
4. T.C. BOA, Dosya: Yıldız Sadaret Hususi, Dosya no: 20, Karton no: 1311, ic no: 1355/1853, 283/31.
5. Y.Çark, Türk Devleri Hizmetinde Ermeniler, 1453-1953. İstanbul: 1953, 316 s.
6. N. Sevinç Osmanlının Yükselişi ve Çöküşü. İstanbul: 1991, gətirilir 536 s.
7. T.C. BOA, Yıldız Evrak, Zarf no: 156, iç sayısı - 24.
8. Belgelerle Türk Tarih Dergisi (B.T.T.D), 1968, №8, 117 s.
9. Tarih Boyunca Türklerin Ermeni Toplumu ile ilişkileri, Erzurum: 1984, 407 s.
10. T.C. BOA, Dosya: Yıldız Esas Evrak, Dosya no: Kısım-71, Evrak no: 2004, iç no: Zarf-45, Karton no:83.

11. N.Banoğlu, Ermeninin Ermeniye Zülmü (Belgeleri ile). Ankara: 1976, 279 s.
12. Belgelerle Türk Tarih Dergisi, C.: 2, sayı: 9, 131 s.
13. Osmanlı Belgelerinde Ermeniler (1691-1870), İstanbul: 1987 (101, 105, 106, 158-161, 166 saylı sənədlər) (527 s.); T.C. BOA, Hariciye Nezareti, Endikatör: Tercüme Siyasi, Dosya no: 7, iç no:262, Karton no:13 və s.
14. T.C. BOA, Hariciye Nezareti, Endikatör: İdari-I, Karton no:147, iç no: 879/70; Karton no: 188, iç no: 11031/ 242, 11032/52.
15. T.C. BOA, Hariciye Nezareti, Endikatör: Müteferrik Tercüme, Karton no: 33,36.
16. T.C. BOA, Hariciye Nezareti, Endikatör: Tercüme Siyasi, Dosya no: 7, iç no: 262, Karton no:13.
17. Belgelerle Ermeni Sorunu. Ankara: 1984, 304 s.
18. T.C. BOA, Hariciye Nezareti, Endikatör: Müteferrik Tercüme, Karton no:35.
19. Sitat E.Urasın «Tarihte Ermeniler ve Ermeni Meselesi» kitabından gətirilir. İstanbul: 1987, 798 s..
20. T.C. BOA, Hariciye Nezareti, Endikatör: Tercüme Siyasi, Dosya no: 10, Karton no:13, iç no: 131.
21. T.C. BOA, Dosya: Yıldız Sadaret Hususi, Dosya no: 19 M 1309, no: 450/44.
22. Osmanlı Belgelerinde Ermeniler (9.VII-15.VIII.1895). İstanbul: 1991, 527 s.
23. M.S.Koçaş, Tarihte Ermeniler ve Türk-Ermeni İlişikleri. İstanbul: 1990, 458 s.
24. Baxın: Geçmişden Bugüne Türk-Ermeni İlişkileri, Ankara: 1989, 308 s.
25. N.Göyünç, Osmanlı İdaresinde Ermeniler. İstanbul: 1983, 438 s.

## ПОЛОЖЕНИЕ АРМЯН В ОСМАНЛИНСКОМ ГОСУДАРСТВЕ:ИСТОРИЧЕСКАЯ ПРАВДА И ЛОЖЬ

**И.М.МУСА**

### РЕЗЮМЕ

В статье исследуются вопросы, связанные с положением армян в Османлинском государстве. Далее в ней дается подробный анализ многочисленных фальсификаций по этому вопросу. В работе использованы материалы Османлинского архива, а также периодической печати стран Запада.

## POSITION OF ARMENIANS IN OTTOMAN STATE; HISTORICAL REALITIES AND DECEPTIONS

**İ.M.MUSA**

### SUMMARY

The author analizes a number of deceptive viewpoints and falsifications of Armenian historians and politicians in the paper and the material is refuted on the basis of historical documents and facts as well. In those documents one can meet the fact as if through centuries old Turks were the enemies of the Armenians, Armenians had hard and difficult lives in all the Turkic states; the 1915 Armenian migration held in Ottoman state was the first migration of Armenians and Armenians suffered a genocide by the Ottoman Turks; creation of the Armenian became a reality as a result of the 1915 events.